**MƏTBUAT ÜÇÜN AÇIQLAMA**

# Azərbaycan Türkiyə Tarixi Araşdırmalar Fondu (ATAF) heyəti Mehmet Ali Şahin tərəfindən qəbul edilmişdir

**No: 09/05/09**
**06.10.2009**

Azərbaycan Türkiyə İş Adamları Birliyinin (ATİB) İdarə Heyətinin sədri və Azərbaycan Türkiyə Tarix Araşdırmaları Fondunun (ATAF) İdarə Heyəti sədrinin müavini Ahmet Erentok Türkiyənin Eskişehir və Ankara şəhərlərində işgüzar səfərdə olmuşdur.

Eskişehirdə Anadolu Universitetinin rektoru Fevzi Sürmeli ilə görüşdə ATİB-in təsisçisi olduğu İnnovasiya İnstitutu ilə Anadolu Universiteti arasında əməkdaşlıq məsələləri müzakirə mövzusu olmuşdur. Görüşdə ATİB İdarə Heyətinin üzvü Fərhad Mehdiyev də iştirak etmişdir.

Daha sonra Ankarada görüşlərini davam etdirən Ahmet Erentokun rəhbərlik etdiyi və ATAF İdarə Heyətinin üzvləri – Ural Aküzüm, Orhan Samast və Korhan Yurtseverin daxil olduğu nümayəndə heyəti Türkiyə Böyük Millət Məclisinin sədri Mehmet Ali Şahin tərəfindən qəbul edilmişdir. Görüş zamanı ATAF-ın qarşısında duran məsələlər haqqında, iki qardaş ölkənin ortaq problemlərinin həlli istiqamətində müzakirələr aparılmışdır. Ahmet Erentok həmçinin ATİB-in müxtəlif layihələri haqqında da Mehmet Ali Şahini məlumatlandırmışdır.

ATAF nümayəndə heyəti həmçinin AKP Konya Millət vəkili, Millət Məclisinin Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, eyni zamanda ATAF Himayəçilər Şurasının üzvü Mustafa Kabakçı tərəfindən də qəbul edilmişdir. Görüşdə ATAF-ın həyata keçirdiyi layihələr üzrə mövcud vəziyyət, iki ölkə arasında münasibətlərin inkişaf etdirilməsi istiqamətləri müzakirə edilmişdir.

Əlaqə informasiyası:
Tel.: (+994 12) 449 88 82 / 83; Faks: (+ 994 12) 449 88 84; e-mail: pr@atib.az
**Mətbuat üçün açıqlamadan istifadə edərkən**
**ATAF-ın İctimaiyyətlə Əlaqələr Şöbəsinə istinad edilməsi vacibdir**